MADDİ MƏDƏNİYYƏT ABİDƏSİ-

NƏRGİZTƏPƏ



XOCAVƏND
2019

“Tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir”.

Ümummilli Lider Heydər Əliyev

Mən məsələnin tarixi aspekti haqqında dəfələrlə fikirlərimi bildirmişəm, müvafiq göstərişlər vermişəm, o cümlədən bizim alimlərə ki, məsələnin tarixi aspektlərinə dair tutarlı arqumentlərlə zəngin yeni kitablar dərc edilsin. Bu istiqamətdə də işlər gedir və araşdırmalarımız, əsərlərimiz həqiqəti əks etdirir, yəni tarix həqiqət üzərində qurulmuşdur.Məsələnin tarixi aspekti də çox önəmlidir. Çünki uzun illər ermənilər öz lobbi qurumları vasitəsilə dünyada belə bir rəy formalaşdırmağa çalışırlar ki, Dağlıq Qarabağ qədim erməni torpağıdır və erməni xalqı əsrlər boyu bu torpaqda yaşamışdır. Bunlar tamamilə yalan, təhrif edilmiş məlumatlardır. Hazırda biz bu yalanları ifşa etməklə, həqiqətləri ortaya qoymaqla, eyni zamanda, münaqişənin həlli üçün tarixi bazanı da möhkəmləndiririk. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Dağlıq Qarabağın ərazisində yerləşən bütün yaşayış məntəqələrinin toponimləri Azərbaycan mənşəlidir. Nəinki Dağlıq Qarabağ, indiki Ermənistan toponimlərinin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Yəni, xalqımız əsrlər boyu bu torpaqda yaşamış, yaratmış bundan sonra da bu torpaqda yaşamalıdır.

Azərbaycan Respublikasının Prezidenti

İlham Əliyev

İçərişəhər bütün Azərbaycan üçün, bizim bütün vətəndaşlarımız üçün çox doğma və əziz yerdir. Bakımızın, doğma Bakımızın ürəyidir. Bu, doğrudan da çox dəyərli tarixi və mədəni abidədir. Mənim yadımdadır, xatırlayıram, bir zamanlar İçərişəhər UNESCO-nun qara siyahısına salınmışdı. Çünki burada bərpa işləri aparılmırdı. Bütün bu qanunlara zidd hərəkətlər olub. O zaman məhz prezidentin göstərişi ilə İçərişəhərdə bir çox işlər, bərpa, yenidənqurma işləri aparıldı. Sakinlərin, sahibkarların məramı nəzərə alınaraq İçərişəhərin hər binasına, hər bir daşına dövlət tərəfindən böyük diqqətlə yanaşıldı. Təbii ki, Qala divarının heç bir daşına da ziyan vurmaq olmaz və heç zaman vurulmayacaq.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti

Mehriban Əliyeva

GİRİŞ

Azərbaycanın Qarabağ bölgəsi xalqımızın əsrlər boyu yaratdığı maddi irsin - tarix və mədəniyyət abidələrinin zənginliyi ilə seçilir. Bu abidələr hələ XIX yüzilliyin sonlarından əcnəbi səyyah və tədqiqatçıların diqqətini cəlb etmişdir. Ötən əsrdə isə Qarabağa çoxcaylı arxeoloji ekspedisiyalar təşkil olunmuş, Azıx və Tağlar mağara düşərgələrində (Xocavənd rayonu), Qaraköpəktəpə (Füzuli rayonu), Üzərliktəpə (Ağdam rayonu) yaşayış məskənlərində, Şərifan şəhər yerində (Zəngilan rayonu), Xocalı kurqanlarında və b. abidələrdə fundamental tədqiqatlar aparılmışdır. Yerli mütəxəssislərlə yanaşı, uzun illər Qarabağ abidələrini öyrənmiş rus (akademik İ.İ.Meşşaninov, A.A.İyessen, V.P.Lyubin), alman (E.Resler, Y.İ.Qummel), hətta erməni (K.X.Kuşnareva, O.A.Danielyan) tarixçiləri dönə-dönə bu abidələri Azərbaycan xalqının maddi irsi kimi dəyərləndirmişlər. XX əsrin II yarısında Azərbaycan alimləri Qarabağ abidələrini ardıcıl olaraq tədqiq etmişlər. Əldə edilən nəticələr nüfuzlu elmi nəşrlərdə, o cümlədən Moskvada dərc edilən fundamental 20 cildlik "SSRİ Arxeologiyası"nın ayrı-ayrı bölmələrində öz əksini tapmışdır.

Qarabağın dağlıq, dağətəyi və düzən hissələri arasında tarixən sıx mədəni-təsərrüfat bağlılığı olmuşdur. Bu isə həmin ərazilərdə ibtidai dövrdən üzü bəri məskunlaşmanı şərtləndirən amillərdəndir. Tədqiqatlar Qarabağın təkcə Azərbaycanın deyil, eyni zamanda dünyanın qədim sivilizasiya mərkəzlərindən biri olduğunu göstərir. Təsadüfi deyildir ki, Qafqazda erkən əkinçi-maldar tayfala məxsus məskənlərin qalıqlarına da daha çox məhz Mil-Qarabağ bölgəsində rast gəlinir. Ön Asiyanın inkişaf etmiş cəmiyyətləri ilə qarşılıqlı münasibətlər quran həmin tayfalar yüksək mədəniyyətə sahib idilər

XX əsrin sonlarında erməni silahlı qüvvələri Qarabağın dağlıq hissəsini və ona bitişik ətraf rayonları zəbt etdilər. Bu işğal nəticəsində yüzlərlə kənd və qəsəbə, şəhərlər viran edilib dağıdıldı, dinc əhaliyə qarşı soyqırım törədildi, minlərlə insan yurd - yuvasından didərgin salındı. Minilliklərin yadigarı olan abidələr də erməni vandallarının fiziki və mənəvi terroruna məruz qaldı: Azərbaycan xalqının islamiyyət dövrünə aid 1300 illik tarixi olan məscid, məqbərə və qəbiristanlıqları məhv edildi, xristian dövrü memarlıq abidələri isə saxtalaşdırıldı. İşğalçı rejimin ideoloqları Qarabağın ayrı-ayrı yerlərində qazıntı aparır, Xocavənd rayonundakı Azıx paleolit düşərgəsində erməni izi axtarır, Ağdam rayonunda - vaxtilə Qarabağ xanlığının banisi Pənahəli xanın tikdirdiyi Şahbulaq qalası yaxınlığında mifik erməni şəhərinin "tapılması" haqda dünyaya car çəkirlər. Onlar iddia edirlər ki, guya Sovet dövründə Azərbaycan rəhbərliyi erməni alimlərini Qarabağda tədqiqat aparmağa qoymurdular. Halbuki, XX əsrin 20-ci illərində C.Ter-Avetisyan, 30-40-cı illərdə L.Taşçyan, 50-60-cı illərdə K.Kuşnaryeva, 70-80-ci illərdə O.Danielyan kimi erməni mənşəli alimlər hətta ekpedisiya və dəstə rəhbərləri qismində Qarabağda tədqiqatlar aparmışlar.

NƏRGİZTƏPƏ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanda arxeoloji ekspedisiyaların fəaliyyətini genişləndirmək və səmərəliliyini artırmaq məqsədilə 5 fevral 2008-ci ildə imzaladığı sərəncamdan sonra ölkəmizin bütün bölgələrində tədqiqatlar intensiv xarakter almış, xalqımızın tarixi keçmişinin öyrənilməsində mühüm addımlar atılmışdır. Təkcə son iliərdə Azərbaycan-Almaniya beynəlxalq ekspedisiyası Mil-Qarabağ bölgəsində 170-ə yaxın arxeoloji abidə qeydə almışdır. Bu abidələrin böyük bir qismi Şpartı, Qarasu, Hunaşen və Qarqarçay hövzələrində cəmləşmişdir. Xocavənd rayonu ərazisindəki Nərgiztəpə də həmin abidələrdəndir.



2013-2015-ci illərdə Nərgiztəpədə arxeoloji tədqiqatlar aparılmışdır. Kəşfiyyat-axtarış işlərinin həyata keçirilməsində professor B. Helvingin rəhbərlik etdiyi Almaniyalı mütəxəssislər də yaxından iştirak etmişlər: geodezist A. Kvast müasir texniki avadanlıqlar vasitəsilə abidənin topoqrafik planını çıxarmışdır. Geofiziklər Y. Fasbinder və F. Besker ərazinin maqnitoloji xəritəsini çəkmişlər. Texnik J. Krumnov isə Nərgiztəpənin 3D formatında görünüşünü yaratmaq məqsədilə ilkin işləri aparmışdır.

Yaşayış məskəninin yerüstü materiallar arasında müxtəlif dövrlərə aid keramika nümunələri üstünlük təşkil edir. Orta əsrlərin şirli qabları bir qayda olaraq narın gildən hazırlanmışlar. Boşqab tipli belə qabların içərisi həndəsi naxışlarla bəzədilmiş və yaşıl, qəhvəyi və süd rəngli boya ilə örtülmüşdür. Şirsiz saxsı məmulatı içərisində küp və küpə tipli qablar çoxdur. Antik dövr dəfn küplərini və Orta əsrlərin təsərrüfat küplərini xatırladan iri tutumlu qablardan bəzilərinin ağızlarının kənarı kəndirvari naxışlanıb. Qabların bir çoxunun çiyin hissəsinə qabartma və batıqlardan, cızma və çərtmələrdən ibarət naxışlar çəkilmişdir. Nərgiztəpə ətrafından rast gəlinən qara cilalı keramika nümunələri bölgənin erkən dəmir dövrü saxsı məmulatı ilə oxşarlıq təşkil edir. Antik dövrə aid fraqmentlər isə əsasən narın gildən hazırlanmış, üzəri yaxşı hamarlanmış, nazik divarlı, üzəri qırmızı boya ilə naxışlanmış qablara məxsusdur.

Nərgiztəpə yaşayış məskəninin stratiqrafiyasını müəyyən etmək məqsədilə onun şimal hissəsində aparılan yoxlama qazıntı işləri bu abidənin əsasən üç mədəni təbəqədən ibarət olduğunu göstərdi: orta tunc, antik və orta əsrlər. Erkən dəmir dövrünə aid seyrək halda saxsı qırıqlarına (qara cilalı qabların ağız, gövdə və qulp hissələrinə) təsadüf edilməsi abidədə bu dövrə aid mədəni təbəqənin də olmasından xəbər verir. Qazıntı zamanı 2,5 m dərinlikdə aşkara çıxarılan iri oval daşlardan və çiy kərpiclərdən ibarət divar diqqəti cəlb etmişdir. Eni 2,7 m olan bu divarın abidə yerləşən təpənin bütün çevrəsi boyu uzandığını düşünmək olar. Divarın ətrafı təmizlənərkən rast gəlinən gil insan fiquru daha çox maraq doğuran artefaktlardandır.

ANTİK NEKROPOLDA YOXLAMA QAZINTILAR

Nərgiztəpənin cənub qərb tərəfində batmış çuxurlara və ətrafa səpələnmiş daş və saxsı məmulatına rast gəlinir. Daş məmulatı əsasən sürtgəc və dən daşlarından ibarətdir. Bir qayda olaraq, qayıqvari şəkildə olan dən daşlarının işlək hissəsi yastı, arxa hissəsi isə qabarıqdır. Yerüstü saxsı nümunələri boz və çəhrayı rəngdədirlər. Böyük təsərrüfat küplərinin gilinə iri qum dənələri qatılmışdır. Məişət qabları - küpə, bardaq, kasa tipli qablar narın gildən hazırlanib yaxş bişirilmişlər.

Bəhs olunan maddi mədəniyyət nümunələrinin səpələndiyi yamacda yoxlama şurf qoyulmuş və burada ağızı cənuba, oturacağı isə şimala tərəf olan dəfn küpü açılmışdır. Küpün hündürlüyü 1,35 m, gövdəsinin kəsikdə eni 0,8 m, ağzının diametri 37 sm, oturacağının diametri isə 22 sm-dir. Ağızın kənarlarına kəndirvari yapma naxışlar çəkilmişdir. Mərhum dəfn küpünün içərisində sol böyrü üstə bükülü vəziyyətdə, başı küpün ağız hissəsinə doğru, üzü isə qərbə yönəlmiş halda dəfn olunmuşdur. Qəbir avadanlığına görə mərhumun qadın olduğunu söyləmək olar. Belə ki, dəfn küpünün içərisində – baş tərəfin ətrafında bütöv halda olan bir ədəd boz rəngli bardağa, parçalanmış halda olan bir dolçaya, nəfis hazırlanmış qara cilalı kasaya (sınmış haldadır), tunc məftildən düzəldilmiş 4 ədəd qolbağıya, bir cüt sırğaya, bir üzüyə və müxtəlif materiallardan olan 90-a yaxın muncuğa rast gəlinmişdir. Bu nümunələr öz oxşarlarını Qafqaz Albaniyasının antik dövr küp qəbirlərindən tapır. Qazıntı işləri Nərgiztəpə kompleksinə daxil olan bu ərazidə küp qəbirlərdən ibarət nekropol yerləşməsi barədə mülahizəni təsdiq etdi. Dəfn küplərinin az maili yamacda bərk suxurlu torpaq altında, xeyli dərində yerləşməsi onların salamat qalmasına imkan verir. Gələcəkdə bu nekropolda tədqiqatların aparılması qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasının siyasi, sosial-iqtisadi və mədəni həyatının öyrənilməsində əhəmiyyətli rol oynaya bilər.

NƏRGİZTƏPƏDƏ "KİTABİ DƏDƏ QORQUD" QƏHRƏMANLARININ İZLƏRİ

Nərgiztəpədə aparılan çöl tədqiqatları zamanı abidənin cənub ətəyində bir hektara yaxın ərazidə yerləşən və yerli sakinlərin "Avşar qəbiristanlığı" adlandırdıqları orta əsr türk qəbiristanlığının topoplanı çıxarılmışdır. Burada 150 x 70 m sahədə 300-dən artıq qəbir qeydə alınmış, onlardan bəzilərinin üzərində olan işarə və damğaların fotoşəkilləri çəkilmişdir. Üzərində təsvir və epiqrafik mətnlər olan bir neçə sənduqə - qəbirüstü daş mükəmməl sənət nümunəsi kimi diqqəti cəlb etmişdir. AMEA Milli Azərbaycan Tarix Muzeyinin əməkdaşı Həbibə xanım Əliyeva belə sənduqələrdən birinin üzərində ərəb qrafikası ilə həkk edilmiş yazını oxumuşdur. Həmin yazıda mərhumun adı – Əhməd oğlu Hüseyn bəy qeyd edilmiş, onun ölüm tarixi kimi hicri 701-ci il, miladi təqvimlə 1302-ci il göstərilmişdir. Bəhs olunan sənduqənin baş daşı yerinə dikinə qoyulması, eləcə də digər təsvirli daşlardan qəbiristanlıqda dəfələrlə istifadə olunması göstərir ki, burada əvvəlki dövrlərə aid qəbirlərin də olması istisna deyildir.

Nərgiztəpə məzarlığındakı qəbirlərdən biri artıq bir neçə əsrdir ki, "Kitabi Dədə Qorqud" dastanlarının qəhramanlarından olan Qaraca Çobana aid edilir. Rəvayətə görə, bu eposda təsvir olunan hadisələrin bir çoxu məhz Nərgiztəpənin yerləşdiyi ərazidə baş vermişdir. Məlumdur ki, kökləri daha qədimlərə, patriarxal qəbilə cəmiyyətinin hökmran olduğu çağlara getsə də, Dədə Qorqud boyları VII əsrdən – Məhəmməd peyğəmbərin zamanından formalaşmağa başlamışdır. Təsadüfi deyildir ki, 2000-ci ilin aprel ayında Azərbaycanda Respublika Prezidenti Heydər Əliyevin sərəncamı ilə türk xalqlarının müştərək abidəsi olan bu eposun 1300 illiyi ölkəmizdə təntənəli şəkildə qeyd olunmuşdur.

Nərgiztəpə qəbiristanlığında və ətraf sahələrdə səpələnmiş iri daşlar Xocavənd sakinlərinin düşüncəsinə görə Qaraca Çobanın "sapand daşları", yaxud "daşa dönmüş qoyunları"dır. Ümumiyyətlə, Qarabağın bu bölgəsi tarixən oğuz türklərinin yurd yerləri olduğunu təsdiq edir: dastan qəhramanı Qazan xan "Qaraçuğun qaplanı" adlandırılır. Nərgiztəpə yaxınlığındakı Qarabağ dağ silsiləsinə məxsus yüksəkliklərdən birinin adı da məhz "Qaraçuğ"dur. XIX əsrdə və XX əsrin əvvəllərində çəkilən hərbi-topoqrafik xəritələrdə hündürlüyü 632 m olan bu dağın adı qeyd edilmişdir. Orta əsrlərdə həmin ərazidə Qaraçuğ adlı kəndin olması haqqında məlumat var. XVIII əsrin əvvəllərində Rusiya Xəzərsahili vilayətləri işğal edəndə Osmanlı qoşunu Cənubu Qafqaza daxil olmuş, onun böyük bir hissəsini nəzarət altına almışdır. Osmanlı məmurları vergi sistemini nizama salmaq məqsədilə 1727-ci ildə buradakı bütün yaşayış məntəqələrinin dəqiq siyahısını tərtib etmişlər. "Dəftəri-müfəssəl əyaləti Gəncə" adlı bu siyahıda Dağlıq Qarabağın 5 mahalına mənsub kəndlərin adı yer almış, o cümlədən Vərəndə mahalına daxil olan 60 kəndin sırasında Qaraçuğun da adı çəkilmişdir. Həmin siyahıda "Oxçu" adlı kəndin də adı qeyd olunub. Qaraçuğ yaxınlığında Böyük Oxlu və Kiçik Oxlu adlı dağlar var. Məlumdur ki, oğuzlar hər birinin öz damğası – fərqləndirici möhürü olan 24 tayfadan ibarət idi. Bayat boyuna məxsus damğa ox işarəsi şəklində təsvir edilmişdir.

Avşarlar oğuzların Bozox qoluna mənsub idilər. Son yüzilliklərdə onlar Mil-Qarabağ bölgəsində Kəbirli və Qaradolaq camaatı ilə yanaşı ən iri heyvandarlıq təsərrüfatına sahib olmuşlar. Beləliklə, bir tərəfdən, türk mənşəli toponimlər, digər tərəfdən isə Nərgiztəpə ətrafındakı işarəli qəbir daşları, eyni zamanda bölgədə tez-tez rast gəlinən Səlcuq və Eldəniz hökmdarlarının adına kəsilmiş mis sikkələr təsdiq edir ki, VII əsrdən başlayaraq bəhs olunan ərazidə aramsız olaraq Oğuz türkləri həyat sürmüşlər.

NƏRGİZTƏPƏ KOMPLEKSİNƏ DAXİL OLAN DİGƏR ABİDƏLƏR

Nərgiztəpədən cənubdakı geniş sahələrdə iri daşlardan inşa olunmuş mürəkkəb quruluşlu, mükəmməl tikili qalıqlarının – divarların izləri müşahidə olunur. İki cəgə iri və yumru çaydaşlarından inşa olunmuş, aralarına xırda daşlar və torpaq doldurulmuş bu divarların əsasən bünövrə hissəsi qalmışdır. İlkin tədqiqatların gedişində eni 1 m olan həmin divarların 60 metrə yaxın hissəsi təmizlənərək açılmışdır.

Tikintidə istifadə edilmiş minlərlə ağır çay daşının təxminən bir kilometrlik məsafədən keçən Hunaşen çayının yatağından gətirilməsi ehtimal olunur. Divarların ətrafından aşkar edilən saxsı və şüşə qab nümunələri bu tikili qalıqlarının Erkən Orta əsrlərə aidliyini təsdiq edir. Sonralar bu ictimai tikililərin daşlarından müxtəlif məqsədlər üçün istifadə olunmuşdur. Yuxarıda qeyd edildiyi kimi, Nərgiztəpənin tunc dövrü yaşayış məskəninin ətrafındakı divarlar da çiy kərpiclə yanaşı belə iri daşlardan tikilmişdir. Orta əsrlərdə isə Nərgiztəpənin cənub ətəyindəki qəbirlər həmin daşlarla kromlex şəklində əhatəyə alınmışdır.
Nərgiztəpənin üzərində, eləcə də ətraf sahələrdə Birinci Qarabağ müharibəsinə aid çoxlu səngər yerləri var. Bir sıra hallarda bu səngərlərdə mədəni təbəqənin izlərini aydın görmək olar. Tədqiqat zamanı Nərgiztəpə yaxınlığındakı səngər yerlərindən biri təmizlənərkən profildə qalınlığı 1,5 metrə çatan mədəni təbəqə aşkar edilmiş və çoxlu saxsı qırıqları toplanmışdır. Bu nümunələrin əksəriyyəti Erkən Orta əsrlərə aiddir. Saxsı qablar, xüsusilə məişət keramikası üzərindəki naxışlar alban tayfalarının bədii zövqünü əks etdirir.
Nərgiztəpə Dağlıq Qarabağın Azərbaycanın nəzarəti altında qalan bir parçasıdır. Bu yüksəklik olduqca strateji əhəmiyyət kəsb edir.Buradan hazırda işğa altında olan Xocavənd şəhəri Kurapatkin və Muğanlı kəndlərinin qalıqlarını müşahidə etmək mümkündür.
Xocavənd Rayon İcra Hakimiyyəti başçısının müvafiq Sərəncamı ilə Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsini əbədiləşdirmək məqsədi ilə Xocavənd rayonunun Nərgiztəpə adlanan ərazisində memorial abidə -xatirə kompleksi yaradılmışdır. Abidə kompleksinin məhz bu ərazidə qurulması mahiyyət etibarı ilə bir neçə cəhətdən əhəmiyyətlidir. Belə ki, 1993- cü ilin sonları və 1994-cü ilin əvvəllərində Xocavənd rayonunun Nərgiztəpə eləcədə digər ərazilərinin düşmən tapdağından azad olunması uğrunda və ümumiyyətlə Xocavənd istiqamətində qanlı döyüşlər getmiş, bu ərazilər dəfələrlə əldən-ələ keçmiş, müqəddəs Vətən torpağının hər qarışı Xocavəndlilərlə yanaşı ölkəmizin müxtəlif bölgələrindən olan igid oğulların qanları ilə suvarılmışdır.

Həmin dövrdə düşmənə sarsıdıcı zərbə endirən silahlı qüvvələrimiz uğurlu döyüş əməliyyatları keçirərək Xocavənd Rayonunun – Dağlıq Qarabağın inzibati ərazisinə daxil olan böyük bir ərazini düşmənlərdən azad etməyə müvəffəq olmuşlar. Eyni zamanda bu ərazilərin Dağlıq Qarabağın işğaldan azad olunmuş hissəsi olması və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyində 1116 saylı inventar nömrəsi ilə qeydə alınmış orta Tunc dövrünə aid ölkə əhəmiyyətli arxeoloji abidə hesab edilən Nərgiztəpə maddi mədəniyyət abidəsinin burada yerləşməsi , 1994-cü ilin 10 aprel tarixində Ümummilli Lider Heydər Əliyevin burada Xocavənd taborunun döyüşçüləri ilə səngərdə görüşməsi,onlarla söhbət etməsi faktları bu ərazilərin mahiyyət etibarı ilə böyük əhəmiyyət daşımasını şərtləndirir. Qeyd olunan ərazidə - Daşlıtəpədə Ulu Öndərin həmin səfərini əks etdirən xatirə lövhəsinin, əsgərlərimizlə bir yerdə çəkilmiş fotoşəkillər və onlar qarşısında etmiş olduğu tarixi çıxışdan ibarət plakatların hazırlanaraq yerləşdirilməsi təmin edilmiş, burada yaradılmış muzey otağında həmin tarixi səfərin ziyarətçilərə nümayiş olunması üçün lazımi avadanlıqlar quraşdırılmışdır.
Eyni zamanda ərazidə vaxtilə qızğın döyüşlərin getdiyi bir vaxtda döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuş və ya yaralanaraq sağlamlıqlarını itirmiş qəhrəman oğullarımızın qanları töküldüyü yerlərdə xatirə lövhələri qurulmuşdur. Bütün bunların yaradılmasında əsas məqsəd şanlı tariximizi yaşatmaqla bərabər eyni zamanda böyüməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasına nail olmaqdan ibarətdir ki, artıq rayonun ümumtəhsil məktəblilərində təhsil alan şagirdlərin və ərazidə xidmət edən gənc əsgərlərin buraya ekskursiyayaları təmin olunur.Bu ekskursiyalar zamanı ziyarətçilərə verilən bilgilər onların düşüncələrinə əhəmiyyətli dərəcədə təsir edir.

İLKİN NƏTİCƏLƏR

Nərgiztəpədə aparılan arxeoloji kəşfiyyat-axtarış işləri zamanı aşağıdakı nəticələr əldə olunmuşdur:

- Nərgiztəpənin Qarabağda - Qarqarçay, Hunaşen və Qarasu hövzələrindəki çoxsayl abidələr sırasında yeri müəyyən edilmişdir;

- abidənin stratiqrafiyasını aydınlaşdırmaq məqsədilə aparılan yoxlama qazıntılar burada Tunc, Antik və Orta əsrlərə aid üç mədəni təbəqənin olduğunu aşkara çıxarmışdır;

- qazıntı zamanı Nərgiztəpədə Tunc və Erkən Dəmir dövrünə aid ətrafı möhkəmləndirilmiş yaşayış məskəninin qalıqları açılmışdır;

- Antik və Erkən Orta əsrlərdə Nərgiztəpə qədim Azərbaycan dövləti olan Albaniyanın Ərsaq vilayətinə daxil olmuş, ölkənin mədəni-iqtisadi həyatında əhəmiyyətli ro oynamışdır;

- Bütün Orta əsrlər boyu Nərgiztəpə türkdilli tayfaların yaşayış məskəni olmuşdur. Ərazidəki qəbir abidələri, türk mənşəli toponimlər, folklor nümunələri və maddi artefaktlar bunu təsdiq edir;

- Erkən orta əsr alban memarlığına aid mükəmməl tikililərin bir qismi aşılmışdır.

Qarabağın dağlıq və aran hissələrinin kəsişməsində yerləşən və Azərbaycan xalqının zəngin mədəni irsinin qiymətli nümunəsi olan Nərgiztəpənin tarixi-mədəni qoruq elan edilməsi, burada geniş miqyaslı arxeoloji qazıntı işlərinin aparılması məqsədəuyğundur.

XOCAVƏND
Qalınqaya d.
288
Daştepe kurqanı
Yenikend
Qarakend
Çörekli
Heşan
Mirikend
Avdur
Yemişcan
Ağkend
Gülmetepe d.
720
Kuropatkino
Muğanlı
Qağartsi
Qantepe
Əmiranlar
Ağburun d.
1961
Qaradağlı
Cemiyyet
960 Güzey d.
Müşkapat
631
Kiş
Xanoba
Gavahin
Quzeyçartar
Güneyçartar
Arpadüzü
Güneyxırman
Ağbulaq
Quzumkend
Quzeyxırman
Xerxan
Qarazemi
433 Qızılqaya d.
Zavadx
Sos
Şıx Dursun
Qarqar
Cütçü
Çağadüz
Qırmızı Bazar
Zardanaşen
Tağaverd
Köndelençay
Şexer
2725
Böyük Kırs d.
Işxançay
1315
Şalakatin
Zoğalbulaq
Azık
Böyük Tağlar
Bina
Tuğ
Tsakuri
Düdükçü
2402 Çınıslı d.
Allıçay
Atagut
Axullu
Memmeddere
Edilli
Susanlıq
Arpagedik
2388 Güllüce d.
Ağdam
Örgüneş d. 1462
Ağbulaq
Xırmancıq
Çaylaqqala
Qırmızıqaya
Bulutan
2478 Ziyaret d.
Hadrut
Tağaser
Köhne Tağlar
Şahyeri
Verg
Ağcakend
Derekend
Şişdağ 1314
Güneşli
Sor
Ağdayırmançay
Mülküdere
1577
Merzelidağ
Daşbaşı
Dolanlar
Binederesi
Arakül
Cilen
Bünyad